*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 188-193*

https://doi.org/10.62837/2025.7.188

**HƏSƏNOVA AYNUR OSMANOVNA**
**Bakı Dövlət Universiteti, doktorant**
**aynur.osmanovna@gmail.com**

# ORFOQRAFİK NORMANIN MEDİANIN DİL SİYASƏTİNDƏ ROLU

## Xülasə

Dil hər bir millətin kimliyini, mədəniyyətini və tarixi yaddaşını ifadə edən mühüm ünsür olmaqla yanaşı, cəmiyyətin intellektual inkişafının da göstəricisidir. Azərbaycan ədəbi dilinin inkişafında və norma sisteminin qorunmasında orfoqrafiya xüsusi əhəmiyyət kəsb edir. Orfoqrafik qaydalar yazılı ünsiyyətin aydınlığını, eyni zamanda dilin vahid kommunikasiya vasitəsi kimi fəaliyyətini təmin edir. Bu normaya əməl edilməsi yalnız təhsil müəssisələrinin, elmi və bədii ədəbiyyatın deyil, həm də geniş auditoriyaya malik olan kütləvi informasiya vasitələrinin, medianın əsas vəzifələrindən biri hesab olunur.

Medianın dili formalaşdırmaq gücü nəzərə alındıqda, orfoqrafik normanın pozulması cəmiyyətdə dilin saflığının, təmizliyinin zəifləməsinə, yazılı nitq mədəniyyətinin məhv olmasına və ictimai savadlılıq səviyyəsinə mənfi təsir göstərə bilər. Digər tərəfdən, mediada orfoqrafik qaydalara riayət edilməsi geniş oxucu kütləsinə nümunə rolunu oynayır və düzgün yazılış ənənələrinin möhkəmlənməsinə şərait yaradır.

Beləliklə, medianın dil siyasətində orfoqrafik normaların qorunması yalnız texniki qayda məsələsi deyil, həm də milli kimliyin, dil mədəniyyətinin və ictimai düşüncənin inkişafında mühüm strateji əhəmiyyətə malikdir.

**Açar sözlər: media, orfoqrafiya, norma, dil**

Dil ictimai hadisə olduğu üçün cəmiyyətin hər bir nümayəndəsinə eyni səviyyədə xidmət edir. Azərbaycan dili xalqımızın milli varlığını müəyyənləşdirən və təsdiqləyən başlıca amillərdən biridir. Ana dilimiz dünyanın ən zəngin dillərindən hesab olunur, bu dil vasitəsilə biz fikrimizi, duyğu və düşüncələrimizi ən incə çalarlarına qədər ifadə edə bilirik. Dilimiz dünya dilləri arasında həmişə nüfuzunu qoruyub saxlayıb.

Azərbaycan dilinin iki qolu mövcuddur:

Danışıq dili;

Ədəbi dil.

Danışıq dili xalq arasında formalaşmış, loru sözlərin üstünlük təşkil etdiyi, cilalanmamış, təkmil olmayan, normalara, qaydalara tabe olmayan qeyri-rəsmi ünsiyyət vasitəsidir. O, qədim dil qatının xüsusiyyətlərini özündə qorumaqla yanaşı,

eyni zamanda dialekt və şivələrin leksik və fonetik xüsusiyyətlərini də mühafizə edir. Danışıq dilinin yazı forması mövcud deyil.

Ədəbi dil isə dilin təkmil formasıdır, yəni cilalanmış, qayda-qanunlara əsaslanan, normalara tabe dil formasıdır. Ə.Dəmirçizadənin sözləri ilə desək, "ədəbi dildə dürüstlük, düzgünlük, dəqiqlik, asanlıq, sadəlik, vahidlik, eynilik, sabitlik, ahəngdarlıq, səlistlik, fəsihlik, davamlılıq" olmalıdır. (1) Bu meyarlara əsaslanaraq qurulan ədəbi dil pozulmaz xarakter daşıyır və qloballaşan dünyada qabaqcıl dünya dilləri ilə müqayisədə rəqabət qabiliyyətini qoruyur.

Müasir Azərbaycan ədəbi dili dedikdə, müasir dünyada yüksək səviyyədə inkişaf etmiş, müxtəlif sahələr üzrə hərtərəfli ifadə imkanları olan dil nəzərdə tutulur. Bu gün dilimizin qarşısında duran əsas vəzifə düzgün danışmaq, yazmaq, oxumaq və anlamaq üçün normalar, qayda-qanunlar müəyyən etmək, həmçinin həmin normalara əməl edilməsinə nəzarət mexanizmlərini təmin etməkdir.

İctimai ünsiyyətin mühüm formalarından biri də yazıdır. Yazı insan mədəniyyətini nəsildən-nəslə, cəmiyyətdən cəmiyyətə ötürən, cəmiyyətlərin inkişafı tarixini özündə əks etdirən əvəzsiz vasitədir. Yazılı nitqin normaları dilin orfoqrafiya bölməsində toplanıb. Orfoqrafiya – dil vahidlərinin düzgün yazılış qaydalarını müəyyən edən, dilin inkişafında mühüm normativ funksiya daşıyan sahədir.

Orfoqrafiya qaydaları hər bir dilin nizamlanmasına xidmət göstərir. Belə ki, dilin fonetik, leksik və qrammatik quruluşu orfoqrafiya qaydalarının tələbləri üzərində tənzimlənir... Orfoqrafiya qaydaları təkcə dilimizin öz sözlərinə deyil, həm də alınma sözlərə tətbiq olunur. (3)

Bu qaydalar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş "Azərbaycan dilinin Orfoqrafiya Normaları"nın təsdiq edilməsi haqqında (2019) qərarla tənzimlənir və dilin yazı sistemini formalaşdırır. Orfoqrafik norma aşağıdakı sahələri əhatə edir:

- Sözlərin düzgün yazılışı;
- Şəkilçi və qoşmaların istifadəsi;
- Mürəkkəb sözlərin birləşmə qaydaları;
- Sözün sətirdən sətrə keçirilməsi;
- Qısaltma və ixtisarların (akronimlərin) yazılışı. (2).

Bu norma sistemi yalnız yazının texniki dəqiqliyini təmin etmir, həm də dilin ümumxalq ünsiyyət vasitəsi kimi sabitliyini və standartlaşdırılmasını qoruyur. Orfoqrafik qaydalara əməl edilməsi vahid kommunikasiya mühitinin formalaşması, savadlılığın inkişafı və ədəbi dilin saflığının qorunması baxımından zəruri şərtdir. Bu qaydalara hamı məcburi surətdə əməl etməlidir.

Müasir qloballaşan dünyada yazılı ünsiyyətin əsas platformalarından biri mediadır. Televiziya, radio, qəzet, jurnal, xəbər sayt və portalları kimi media qurumları cəmiyyətin dil mədəniyyətinə birbaşa təsir göstərir. Belə şəraitdə orfoqrafik normanın medianın dil siyasətində qorunması xüsusi aktuallıq kəsb edir.

Çünki medianın dili həm nümunəvi funksiyaya malikdir, həm də cəmiyyətin dil davranışını formalaşdırır.

Orfoqrafiya ilə medianın əlaqəsi yalnız dilin estetikası və texniki tərəfi ilə məhdudlaşmır, həm də milli kimlik, ictimai savadlılıq və dil siyasəti baxımından strateji əhəmiyyət daşıyır.

Müasir dövrdə televiziya, radio, qəzetlər, jurnalist yazıları, xəbər portalları və sosial media platformaları geniş auditoriyaya təsir göstərən başlıca informasiya vasitələridir. Bu səbəbdən medianın dil siyasəti, o cümlədən orfoqrafik normaya münasibəti cəmiyyətin dil mədəniyyətinin formalaşmasında mühüm rol oynayır. Media dilin yalnız ünsiyyət vasitəsi deyil, həm də ictimai davranış nümunəsi kimi qəbul edilməsinə şərait yaradır.

Medianın dil siyasəti əsasən üç istiqamətdə nəzərdən keçirilə bilər:

1. Normativ funksiyası.

Medianın ictimaiyyətə təqdim etdiyi yazılı və şifahi mətnlər dil normalarının tətbiqi baxımından nümunəvi xarakter daşıyır. Orfoqrafik norma pozulduqda isə bu səhvlər geniş auditoriyada təkrar istehsal olunur və nəticədə yanlış yazılış formaları ictimai şüurda sabitləşir. Bu, xüsusilə sosial media mətnlərində daha qabarıq şəkildə müşahidə edilir. Beləliklə, medianın normativ funksiyası həm məsuliyyət, həm də ictimai nümunə funksiyasını əhatə edir.

2. Maarifləndirici funksiyası.

Media yalnız informasiyanı ötürməklə kifayətlənmir, həm də ictimai savadlılığın artırılmasında mühüm vasitə rolunu oynayır. Orfoqrafik norma haqqında maarifləndirici proqramlar, televiziya və radio verilişləri, onlayn müzakirələr, elektron lüğət və izahlı materialların təqdimatı dil mədəniyyətinin inkişafına kömək edir. Bu baxımdan media geniş auditoriyanı düzgün yazı qaydaları ilə tanış etməklə maarifçi missiyasını yerinə yetirir.

3. Dil siyasəti funksiyası.

Medianın dil siyasəti dövlətin rəsmi dil siyasəti ilə uzlaşmalıdır. Azərbaycan mediası dövlət dili haqqında qanunvericiliyə əsaslanaraq, dilin saflığının qorunmasına, milli kimliyin möhkəmlənməsinə və ədəbi dilin nüfuzunun artırılmasına xidmət etməlidir. Medianın bu istiqamətdə fəaliyyəti yalnız dilin daxili qaydalarının qorunması ilə məhdudlaşmır, həm də milli-mənəvi dəyərlərin ictimaiyyətə ötürülməsi baxımından strateji əhəmiyyət daşıyır.

Medianın dil siyasətində orfoqrafik normanın qorunması dövlət dil siyasətinin effektiv həyata keçirilməsinə şərait yaradır. O, geniş auditoriyaya nüfuz etdiyindən, onun istifadə etdiyi dil həm normativ nümunə, həm də ictimai şüurda dil davranışını formalaşdıran vasitə kimi çıxış edir.

Lakin müşahidələr göstərir ki, bəzi onlayn media orqanlarında dil nöqsanlarına hələ də rast gəlinir:

*"Bəs, görəsən Nikol Paşinyan bu absurd, sərsəm qərarlarını necə ört-basdır edə bilər?!" – Bu nümunədə **"görəsən"** modal sözdür və ondan əvvəl də, sonra da vergül qoyulmalıdır. (Mənbə: trend.az, 5 oktyabr 2023 - https://az.trend.az/azerbaijan/politics/3807609.html ).*

*"Rəqəmsal Səhiyyə Mərkəzinin nəzdində fəaliyyət göstərən "814" Çağrı Mərkəzi, həmçinin (055) 531-38-28 nömrəli WhatsApp dəstək xətti vasitəsilə də müraciətlər qəbul edilir" – **"WhatsApp"** sözü ya dırnaq içində yazılmalıdır, ya da dırnaqsız"vatsap" şəklində verilməlidir. (Mənbə: trend.az, 8 iyul, 2025 - https://az.trend.az/azerbaijan/society/4067422.html )*

*"Sözügedən kəndlər 2020-ci il ikinci Qarabağ müharibəsindən sonra Azərbaycan tərəfindən tam nəzarət bərpa edilmiş ərazilərdə yerləşirlər" – "**İkinci"** sözü böyük hərflə yazılmalıdır. (Mənbə: trend.az, 4 sentyabr, 2025 -* https://az.trend.az/business/4086901.html )

*"Hadisənin baş verdiyi Sauzuark rayonunun polis rəisi bildirib ki, ilk versiyaya görə hadisə terorrla əlaqəli deyil"– **"Terror"** sözündə iki "r" ilə yazılmalıdır. (Mənbə: trend.az, 29 iyul, 2025,* https://az.trend .az/other/world/ 4075093.html )

*"Trend xəbər verir ki, sərəncama əsasən, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirməlidir" – **"Sərəncam"** sözü bu konteksdə böyük hərflə yazılmalıdır. (Mənbə: trend.az, 4 sentyabr, 2025, https://az.trend.az/ azerbaijan/politics/4087003.html )*

*"2020-ci ildə isə UEFA Avropa Liqasının I təsnifat mərhələsində "Sumqayıt"ı mübarizədən kənarlaşdırıblar - 2:0 (COVİD-19 ilə əlaqədar təsnifat mərhələləri bir oyundan ibarət olub)" – **"COVID-19"** "i" hərfi ilə deyil, "ı" hərfi ilə yazılmalıdır. (Mənbə: report.az, 31 iyul, 2025, https://report.az/futbol-xeberleri/qarabag-in-cempionlar-liqasindaki-novbeti-reqibi-yuqoslaviyada-albanlar-terefinden-yaradilan-46-yasli-skendiya-tanitma )*

*"BƏƏ prezidentinin ardınca bu gün İordaniya vəliəhdi Hüseyn bin Abdullah və Səudiyyə Ərəbistanı vəliəhdi Məhəmməd bin Salman Dohaya gedəcəklər" – **"Prezident"** sözü böyük hərflə yazılmalıdır. (Mənbə: report.az, 10 iyun, 2025, https://report.az/diger-olkeler/bee-prezidenti-qetere-sefer-edib )*

*"...bu barədə Türkiyənin səhiyyə naziri Kamal Memişoğlu Təbii Fəlakət və Fövqəladə Halların İdarə Edilməsi Agentliyinin (AFAD)operativ qərargahında məlumat verib" — **"Operativ Qərargah"** ifadəsi böyük hərflə yazılmalıdır. (Mənbə: report.az, 23 aprel, 2025, https://report.az/region-xeberleri/istanbulda-bas-veren-zelzelede-240-a-yaxin-sexs-xesaret-alib ).*

*"Polşanın baş naziri Donald Tusk ötən gecə Polşanın hava məkanının pozulduğunu bildirib" – **"Baş nazir"** birləşməsi böyük hərflə yazılmalıdır. (Mənbə:*

*report.az, 10 sentyabr, 2025, https://report.az/diger-olkeler/polsa-ordusu-olkenin-hava-mekanini-pozan-obyektleri-zerersizlesdirir).*

*"Musa Quliyev: İş yerlərinin bağlanmasının tərəfdarı deyiləm" – iki nöqtədən sonra* ***vasitəsiz nitq*** *dırnaq işarəsi ilə mətndən ayrılmalıdır. (Mənbə: apa.az, 10 sentyabr, 2025, https://apa.az/daxili-siyaset/musa-quliyev-is-yerlerinin-baglanmasinin-terefdari-deyilem-916209 )*

*"...prokurorluğun sosial şəbəkələrdəki səhifələri (İnstagram, Facebook, X) vasitəsilə də qəbula yazıla bilərlər" –* ***"İnstagram", "Facebook"*** *sözləri ya dırnaq içərisində, ya da dırnaqsız halda "İnstaqram", "Feysbuk" formasında yazılmalıdır. (Mənbə: apa.az, 8 sentyabr, 2025, https://apa.az/sosial/bas-prokuror-naxcivanda-vetendaslari-qebul-edecek-915793 ) və s.*

Nümunələrdə müşahidə olunan bu və oxşar halların geniş auditoriyaya təqdim edilməsi ictimai dil praktikasına mənfi təsir göstərir. Belə ki, orfoqrafik səhvlərin kütləvi şəkildə yayılması onların oxucuların yaddaşında möhkəmlənməsinə səbəb olur və nəticə etibarilə ictimai yazı mədəniyyətinin zəifləməsinə gətirib çıxarır.

Media redaksiyalarında dil redaktoru institutu gücləndirilməli, mətnlər yayımlanmadan əvvəl mütləq korrektə və redaktə olunmalıdır.

Medianın bu prosesdə rolu həlledici xarakter daşıyır. Belə ki, media orfoqrafik normalara əməl etməklə cəmiyyətin dil mədəniyyətini qoruyur, düzgün yazılış nümunələrini təbliğ edir və Azərbaycan dilinin beynəlxalq miqyasda nüfuzunu artırır.

## Ədəbiyyat

1.Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. Bakı, "Maarif" nəşriyyatı, 1972, s.5.
2."Azərbaycan dilinin Orfoqrafiya Normaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, Bakı ş, 16 aprel 2019-cu il, N-174. - https://e-qanun.az/framework/42073
3.B.Xəlilov. Müasir Azərbaycan dili. Bakı, "Nurlan" nəşriyyatı, 2007, s.231/232.

## РОЛЬ ОРФОГРАФИЧЕСКИХ НОРМ В ЯЗЫКОВОЙ ПОЛИТИКЕ СМИ

## РЕЗЮМЕ

Язык является не только важнейшим элементом, выражающим идентичность, культуру и историческую память каждого народа, но и показателем интеллектуального развития общества. Орфография играет особую роль в развитии азербайджанского литературного языка и в сохранении системы его норм. Орфографические правила обеспечивают ясность письменного общения, а также функционирование языка как единого средства коммуникации. Соблюдение этих норм считается одной из основных задач не

только образовательных учреждений и литературных произведений, но и средств массовой информации с широкой аудиторией.

Учетом влияния СМИ на формирование языка, нарушение орфографических норм может отрицательно сказаться на чистоте и ясности языка, культуре письменной речи и общем уровне грамотности общества. С другой стороны, соблюдение орфографических правил в СМИ служит примером для широкой аудитории и укрепляет традиции правильного письма.

Таким образом, сохранение орфографических норм в языковой политике СМИ является не просто техническим вопросом, но и имеет важное стратегическое значение для национальной идентичности, языковой культуры и развития общественного сознания.

**Ключевые слова: медиа, орфография, норма, язык**

**HASANOVA AYNUR OSMANOVNA**

## THE ROLE OF ORTHOGRAPHIC NORMS IN THE LANGUAGE POLICY OF THE MEDIA

## SUMMARY

Language is not only a crucial element expressing the identity, culture and historical memory of each nation, but also an indicator of a society’s intellectual development. Orthography plays a special role in the development of the Azerbaijani literary language and in preserving its system of norms. Orthographic rules ensure the clarity of written communication while maintaining language as a unified means of communication. Adhering to these norms is considered a fundamental task not only for educational institutions and literary works but also for mass media with a wide audience.

Considering the media’s power to shape language, the violation of orthographic norms can negatively affect the purity and clarity of the language, the written speech culture, and the overall level of societal literacy. On the other hand, compliance with orthographic rules in media serves as an example for a broad readership and reinforces correct writing traditions.

Thus, maintaining orthographic norms in the language policy of the media is not merely a technical issue; it also holds significant strategic importance for national identity, language culture, and the development of societal thinking.

**Keywords: media, orthography, norm, language**

**Rəyçi: Akademik Nizami Cəfərov**